# USTAD TARZƏN VƏ MUĞAM BİLİCİSİ KAMİL ƏHMƏDOV SƏNƏTİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Telman Qəniyev**
**Afaq Qəniyeva**
**E-mail:** qeniyev.telman@gmail.com

Azərbaycan xalqının mədəniyyəti, incəsənəti və bədii yaradıcılıq irsi çoxəsrlik tarixə malikdir. Xalqımızın musiqi sənəti əsrlər ötdükcə təkmilləşmiş, özünəməxsus tarixi inkişaf yolu keçərək müasir dövrümüzdəki səviyyəsinə gəlib çatmışdır. Xalq musiqimizin müxtəlif növləri ilə yanaşı, şifahi ənənəyə əsaslanan professional musiqi yaradıcılığı daha da zənginləşərək ümumbəşəri dəyər sırasında öz layiqli yerini tutub.

Onu da deməliyik ki, şifahi-professional musiqi janrlarının yaranması üçün məhz folklor musiqisi əsas mənbə olmuşdur. [3.9] Təbiidir ki, folklor nümunələri əsasında şifahi professional musiqinin janr nümunələri, həmçinin muğam sənəti təkmilləşərək öz kamil inkişaf səviyyəsinə çatıb.

XX əsr Azərbaycan muğam sənəti tarixində müstəsna xidmətləri olan sənətkarlardan biri də Əməkdar mədəniyyət işçisi, tarzən, muğam bilicisi Kamil Əlisəttar oğlu Əhmədovdur. Ustad sənətkar muğamlar haqqında o qədər tarixi-nəzəri və təcrübi biliyə malik idi ki, bu sənət haqqında elmi, bədii, publisistik, nəzəri məsələlərə dair dərslik, ədəbiyyat hazırlamaq istəyənlər mütləq məsləhət üçün müraciət edirdilər.

Professor, musiqişünas R.Zöhrabov elmi yaradıcılığı boyu Kamil müəllimin sənətindən bəhrələndiyini dəfələrlə vurğulamışdır. O, XX əsrin 70-ci illərində Azərbaycan televiziyasında apardığı "Xalq musiqisi xəzinəsindən" silsilə verlişlərinə məsləhətçi kimi həmişə K.Əhmədovu dəvət edirdi. Həmin verilişlərdə məşhur ustad tarzənlər, xanəndələr, həmçinin muğam biliçiləri Mirzə Mansurdan, Əhməd Bakıxanovdan, S.Şuşinskidən, onların ustadlığından, musiqi mədəniyyətimizə göstərdikləri xidmətlərdən məmnuniyyətlə söhbət açılırdı. Muğamlara dair elmi araşdırmalarla əlaqədar İrandan, Türkiyədən gələn, həmçinin Azərbaycan musiqişünasları daim K.Əhmədova müraciət edirdilər.

Xalq şairi B.Vahabzadə "Muğam" poemasını yazarkən etiraf edirdi ki, Kamil müəllimlə görüşüm, onun muğam haqqında söhbətləri, izahları, mənə verdiyi bilgilər olmasaydı, bu poema ərsəyə gəlməzdi: "Muğam"ın yaranmasında alimdən tutub məni o sirlər dünyasına, sehrlər aləminə aparanlardan birincisi Kamil Əhmədov idi". [1.14]



K.Əhmədov böyük muğam bilicisi, görkəmli pedaqoq olmaqla yanaşı, musiqi alətləri düzəltmək və onlara sədəf vurmaqla da məşğul olurdu. Sədəf vurduğu alətlər beynəlxalq müsabiqə və sərgilərdə nümayiş etdirilərək, müxtəlif diplomlar və fəxri fərmanlar almışdır. Böyük pedaqoq kimi uzun illər muğam tədrisində əldə etdiyi təcrübəyə istinad edərək deyirdi ki, tələbə ilə müəllim arasında səmimi, şən əhval-ruhiyyə, ünsiyyət, qarşılıqlı anlaşma həm tədrisin keyfiyyətinə müsbət təsir göstərir, həm də tədris prosesini və tələbəni fəallaşdırır. Eyni zamanda aramsız, yorulmadan çalışmaq, məşhur ifaçıların lent yazılarına, konsertlərinə qulaq asmaq, mütaliə yolu ilə muğam dünyagörüşünü artırmaq kamil muğam ifaçısı olmağın əsas şərtlərindəndir.

Gələcəkdə tələbələrinin xanəndə müşayiəti sahəsində mümkün fəaliyyətlərini nəzərə alaraq dərsinin müəyyən hissəsini onlara müşayiət üsulu və formalar haqqında bilgilər verirdi. Özü S.Şuşinskinin sinfində əldə etdiyi zəngin bənzərsiz müşayiət təcrübəsini onlara öyrədirdi. Xalq mahnılarını, təsnifləri, zərb muğamları yeri gəldikcə öyrənməyi tələbələrinə tövsiyə edirdi.



Ustad xanəndə S.Şuşinski muğamlara dair zəngin biliyinə əmin olduğu, çiyin-çiyinə bir sinifdə konsertmeyster işləyən Kamil müəllimə demişdir: “Kamil, vaxt gələcək məni axtarıb, səni tapacaqlar”. Həqiqətən də təxminən 25 il bir yerdə çalışdıqları müddətdə çox məharətlə Seyidin klassik xanəndəlik, muğam məktəbinin bir çox xüsusiyyət və elementlərini əxz etmiş, instrumental tar tədrisinə və ifasına ustalıqla tətbiq etmişdir [2].

Kamil müəllim tədris zamanı tar haqqında izahat verərkən qeyd edirdi ki, tarixən tarın pərdələri temperasiyalı sistemə uyğunlaşdırılaraq not əsərləri çalmaq üçün əhəmiyyətli olsa da, vaxtilə muğam ustadlarımız və Ü.Hacıbəylinin təkidi ilə muğam ifaçılığı üçün zəruri temperasiyadan kənar pərdələr qorunub saxlanmışdır ki, bu gün də aktuallığı ilə əhəmiyyətlidir. Belə ki, “Bayatı-Şiraz” muğamının “Bayatı-İsfahan” və “Zil Bayatı-şiraz” şöbələrində, “Çahargah” muğamında “Mayə” hissəsində, “Şur” muğamının “Mayə” şöbəsində və s. 1/4 tondan istifadə edilir [4.29].

Muğam tədrisində mizrabların istifadə üsullarına, ştrixlərin düzgün vurulmasına və tarın köklənməsi qaydalarına da xüsusi diqqət verirdi. Muğam ifasının aydınlığı üçün alt mizrab yerinə üst, sağ-sol mizrab əvəzinə tremolaya və s. belə səhv ifa üsullarını bəyənmir və qəti şəkildə yol vermirdi.

Əlavə səslənmə tembr effekti yaratmaq üçün “xum” deyilən ifadə vasitəsindən istifadəni müsbət hal sayırdı. Bu zaman tar çanaq hissədən sağ bilək vasitəsilə sinəyə sıxılır, qol hissə isə sol əllə yüngülcə geri dartılaraq simlər ehtizaza gətirilir ki, bu da muğam ifaçılığında həmahənglik effekti yaradır.

Azərbaycan tar-muğam məktəbinin ən gözəl ənənələrini qoruyub saxlamaq, bu zəmində ifanın dinləyici tərəfindən asanlıqla qavranılması, onda dərin hissi-emosional təsir buraxması, bunun üçün bədii ifaçılıq ünsürləri və elementlərinin texniki ustalıqla çatdırılması dərs prosesində Kamil müəllimin qarşıya qoyduğu vəzifələrdən idi. Burada o, sağ biləyin, sol əl barmaqlarının sinxron hərəkətini texniki çalarlardan bədii ifadə vasitəsi kimi istifadə etməyə və aplikaturanın düzgün seçilməsinə çox ciddi fikir verirdi. K.Əhmədov müşayiət zamanı muğam dəstgahlarının xarakterindən asılı olaraq, dəraməd və rənglərin, diringi və təsniflərin yerili-yerində düzgün istifadəsini məsləhət görürdü. Hazırda respublikamızın musiqi təhsil müəssisələrində muğam fənni tədrisinin əsasını öz səciyyəvi xüsusiyyətləri ilə seçilən Kamil Əhmədov muğam məktəbinin ənənələri təşkil edir. ❖

**Ədəbiyyat:**

1. Babayev Q. “Tarzən Kamil Əhmədov”. Bakı, “İşıq”, 1981, 21s
2. Novruzqızı M. “Vaxt gələcək məni axtarıb, səni tapacaqlar”, 1999, 24-25 oktyabr
3. Zöhrabov R. Muğam. Bakı, “Azərnəşr”, 1991, 218 s.
4. Həşimov A. Rast muğamı. Bakı, 2002, 101s.

**Резюме**

Тельман Ганиев

Афаг Ганиева

ТВОРЧЕСКИЕ ОСОБЕННОСТИ МАСТЕРА МУГАМА И ТАРЗЕНА КАМИЛЯ АХМЕДОВА

Эта статья посвящена выдающемуся мастеру мугама и тарзена Камилу Ахмедову. Его творческая цель сохранить традиции мугама, созданные У.Гаджибейли, а также улучшить школы мугама и искусство мугама.

**Ключевые слова:** мугам, традиции мугама, мастер

**Summary**

Telman Ganiyev

Afag Ganiyeva

CREATIVE FEATURES OF THE MASTER OF MUGHAM AND TARZEN KAMIL AKHMEDOVA

This article is dedicated to the outstanding master of mugham and tarzen Kamil Akhmedov. His creative goal was to preserve the traditions of mugham, created by U.Hajibeyli, as well as improve the schools of mugham and mugham performance.

**Key words:** mugham, mugham traditions, master